*FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ PSİXOLOGİYA ELMLƏRİ*

**UOT:159.9.**

# TƏHSİLDƏ KEYFİYYƏT DƏYİŞMƏLƏRİNİN FORMALAŞMASINDA İNNOVASİYALARIN ROLUNUN PSİXOPEDAQOJİ İSTİQAMƏTLƏRİ

***Həsənova Leyla Ağa qızı***
***Gəncə Dövlət Universitetinin müəllimi***
***leyla.hesenova.74@mail.ru***

**Xülasə:** *XXI əsrdə təhsilin keyfiyyətinin yüksəldilməsi ölkəmizdə gedən ictimai-iqtisadi inkişafın əsas şərtidir. Ölkəmizdə təhsilin keyfiyyəti onun yetişdirdiyi şəxsiyyətin keyfiyyətləri ilə ölçülür. Pedaqoji tələblərin fərdiləşməsi və inkişafın tələblərinə cavab verən praktiki metodların planlaşdırılmasındakı çətinlikləri müəllimlər hər şeydən öncə zəif və yetirməyən şagirdlərlə iş zamanı hiss edirlər. Pedaqoji məqsəd dərk olunan yerdə, problem situasiya təhlil edilir, şagirdlər fəallaşdırılır, mövzunun ayrı-ayrı komponentləri hərtərəfli tədqiq edilir. Müəllim bir şəxsiyyət kimi şagirdlərin ona münasibətlərində yaşayır. Təcrübə göstərir ki, şagirdlərin marağı daha çox canlı ünsiyyət və dialoq üzərində qurulan dərsə yönəlir. Tədqiqatçılıq yolu şagirdlərdə yaradıcı təfəkkürü gücləndirir. XXI əsr-şəxsiyyətin formalaşmasında intellekt, yaradıcılıq əsri kimi dəyərləndirilir. Belə halda yaradıcı təfəkkürün inkişafı, şəxsiyyətin inkişafından və onun vətəndaş kimi formalaşma səviyyəsindən asılıdır. Burada ümumi inkişafda əsas məqsəd hərtərəfli inkişaf etmiş, humanist yönümlü şəxsiyyət yetişdirməkdən ibarətdir. Bu isə yeni texnologiyalar şəraitində hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almaqla mümkün ola bilər.*

**Açar sözlər:** təhsilin keyfiyyəti, tələblərin fərdiləşməsi, pedaqoji yaradıcılıq, tədqiqatçılıq fəaliyyəti, inkişafetdirici təlim, muəllim-şagird münasibətlari.

**Ключевые слова:** качество образования, индивидуализация требований, педагогическая креативность, исследовательская деятельность, развивающее обучение, отношения преподаватель-школьник.

**Key words:** quality of education, individualism of requirements, pedagogical creativity, research activity, developing teaching, relationship teacher-student.

XXI əsrdə təhsilin keyfiyyətinin yüksəldilməsi ölkəmizdə gedən ictimai – iqtisadi inkişafın əsas şərtidir. Ölkəmizdə təhsilin keyfiyyəti onun yetişdirdiyi şəxsiyyətin keyfiyyətləri ilə ölçülür. Aparılan araşdırmalar da göstərir ki, təlim prosesinin nəticəsi kimi cəmiyyətdə intellektual və mədəni aspektlər qəbul edilir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi [1, s.6 ], heç şübhəsiz ümumitəhsil məktəblərində keyfiyyətin yüksəldilməsinə öz təsirini göstərir. Məktəbdəki pedaqoji mühit, mənəvi – psixoloji vəziyyəti öyrənərkən aşağıdakı məsələlər prioritet təşkil edir.

-aparılan islahatlarla bağlı məktəb rəhbərliyinin məlumatlılıq səviyyəsi;

-məktəb rəhbərliyinin məktəbin idarə edilməsində əldə rəhbər tutduğu prinsiplər;

-pedaqoji heyətin təhsil səviyyəsi;

-təhsillə bağlı müxtəlif məsələlərə yanaşmaların təhsilin qanunverici sənədlərində əldə rəhbər tutulan yanaşmalara uyğunluğu;

-məktəbdə kollektiv üzvlərinin qarşılıqlı münasibətlərinin və əməkdaşlığının səviyyəsi

Məktəbdə mövcud vəziyyəti bütün incəlikləri ilə tədqiq etmədən, orada təhsilin keyfiyyətinin idarə edilməsi ilə düzgün qərarlar qəbul etmək mümkün deyil [5, s. 34-36]

İnnovasiyalı təlim metodlarını mənimsəmək və islahatların tədris fəaliyyətinə qarşı irəli sürdüyü tələblərə müvafiq olmaq üçün müəllimlərin öz həmkarları ilə ünsiyyət qurmaq,

qarşılıqlı əlaqədə olmaq, onlarla ideya və təcrübə mübadiləsi aparmaq imkanına malik olmaları vacibdir.

Pedaqoji tələblərin fərdiləşməsi və inkişafın tələblərinə cavab verən praktiki metodların planlaşdırılmasındakı çətinlikləri müəllimlər hər şeydən öncə zəif və yetirməyən şagirdlərlə iş zamanı hiss edirlər. Fərqli vərdiş və imkanlara malik şagirdlər üçün müxtəlif tapşırıqların işlənilməsi, sonra isə dərsin gedişində şagirdlərin fərdi xüsusiyyətlərinin, bilik və bacarıqlardakı fərqlərin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir.

Fəal təlim, dərslərinin keçirildiyi zaman yaranan çətinliklərin aradan qaldırılmasını asanlaşdırır, peşəkar müəllimlər şagirdlərə "öyrənməyi öyrətmək" texnologiyasının köməyilə müəyyən situasiyaları həll etmək üçün yollar axtarır və onları istiqamətləndirir. Müəllimin səriştəli mövqeyi elə bir şərait yaradılmasına səbəb olur ki, burada şagirdlər həm seçim, həm də inkişaf imkanı əldə edirlər. Burada sadədən-mürəkkəbə, asandan çətinə prinsipinə riayət etməklə şagirdlərin biliyi müstəqil mənimsəmələrinə şərait yaradılır.

Yaradıcı fəaliyyət göstərən müəllim öz pedaqoji yaradıcılığını müntəzəm olaraq zənginləşdirir və pedaqoji təcrübə ilə əlaqələndirir. Pedaqoji məqsəd dərk olunan yerdə, problem situasiya təhlil edilir, şagirdlər fəallaşdırılır, mövzunun ayrı-ayrı komponentləri hərtərəfli tədqiq edilir. Müasir psixoloji təsəvvürlərə görə, "Müəllim-şagird münasibətləri" ikitərəfli mürəkkəb proses olsa da, onun müəyyənləşməsində müəllimin rolu önəmlidir. Müasir pedaqoji təfəkkür konsepsiyasında müəllimin bir pedaqoq kimi istedadı təkcə didaktik qabiliyyətlərinə və təşkilatçılıq qabiliyyətləri ilə açıqlanmır. Kommunikativ və ekspressiv qabiliyyətlərin də inkişafı dəyərləndirilir Müəllim bir şəxsiyyət kimi şagirdlərin ona münasibətlərində yaşayır. Müasir dövrdə təlim və şagirdlərin inkişafı bir-biri ilə bağlı proseslərdir. Ona görə də müəllim öz fəaliyyətini o zaman müvəffəqiyyətlə həyata keçirə bilər ki, şagirdlərin şəxsiyyətlərinin əqli, sensor və emosional sahələrini, idrak imkanlarını, müstəqil işləmək bacarığı aşılaya bilsin.

Təcrübə göstərir ki, şagirdlərin marağı daha çox canlı ünsiyyət və dialoq üzərində qurulan dərsə yönəlir. Bu gün bütün sahələrdə olduğu kimi, təhsil sistemində də qloballaşma gedir. Bu qloballaşmanın mahiyyətini yaddaş məktəbindən təfəkkür məktəbinə keçid təşkil edir. Bunlara nail olmaq üçün müəllim şagirdlərin dərketmə (Blum taksonomiyası, Qardner nəzəriyyəsi) səviyyələrini bilən, özünə inam, özünü qiymətləndirməyi bacaran (Qultman şkalası) uşaqların ehtiyaclarını təsnifləşdirmə (A.Maslounun ehtiyaclar nəzəriyyəsi) nəzəriyyələri ilə tanış olmalıdır. Bu nəzəriyyələri öyrənmədən müəllim yalnız üzdə görünən (şagirdlərin davranışını, onların dərsdəki cavablarını, fəallığını, dərsə marağını, diqqətli olub – olmadığını və s.) müşahidə edə bilər.[3, s.74].

Təlimdə ən böyük fikir müstəqilliyi tədqiqatçılıq metodunun tətbiqini mümkün edir. Dosent S.Ağayeva [2,s.31] yazır ki, burada ən qiymətli vasitə ilkin axtarıcılıq və tədqiqatçılıq metoduna arxalanmaqdır. Müəllim şagirdlər qarşısında axtarıcılıq fəaliyyəti yolunun özünü nümayiş etdirir. Onlara elmi təfəkkürün nümunəsini verir və bununla da şagirdlərin fikirərinin həmişə doğru hərəkəti izləməyə yönəldir. Onları bir növ elmi axtarışın ixtisasçısına çevirir. Şagirdlərin diqqətini alimlərin fəaliyyətinin elə cəhətlərinə cəlb edir ki, bunlar mərdlik, prinsipiallıq, məqsədəyönəlişlik, əzmkarlıq nümunəsi olsun. Tədqiqatçılıq yolu şagirdlərdə yaradıcı təfəkkürü gücləndirir. Beləliklə də, müəllim hər bir mövzunu keçərkən motivasiya yaratmaq məqsədilə şagirdlərin diqqətini həll olunması mümkün olan problemlər üzərində cəmləşdirir. Lakin elmi müşahidələr əsasında müəyyən olunmuşdur ki, əqli inkişafın yüksək göstəricisi həmişə yüksək yaradıcı nailiyyətləri təmin edir. Eləcə də, o da məlumdur ki, cəmiyyətin nkişafına təsir edən, onun perspektivini təmin edən insanlar heç də həmişə yüksək intellektlərinə görə fərqlənməmişlər. İnkişaf yaradıcılıq tələb edir. Yaradıcılıq istedada bağlıdır və o yalnız bir sahədə, intellektual qabiliyyətlərdə deyil, ayrı-ayrı sahələrdə özünü biruzə verir. İstedadın gecikmə halları da vardır ki, o istənilən yaşda özünü biruzə verə bilər.

Təlim prosesində şagirdlərin intellektual səviyyələri yeni məzmun, yeni metodika tələb edir. Vaxtilə antik alimlər təlim praktikasını tövsiyyələr-qaydalar kompleksi şəklində ümumiləşdirməyə cəhd etmişlər. Sokratın aşağıdakı fikri təlimin müasir ruhuna daha çox uyğun gəlir. O düşünürdü ki, müəllimin vəzifəsi öz şagirdinin başında fikrin doğulmasına, meydana gəlməsinə kömək etməkdən ibarətdir.

Müasir dövrdə pedaqoji-psixoloji prosesin səmərəli təşkili psixi prosesləri və fərdi xüsusiyyətləri düzgün müəyyənləşdirməyi tələb edir. Çünki hər bir şagirdin xarakterini, temperamentini, qavrayış səviyyəsini, hafizə möhkəmliyini, təxəyyülünün xüsusiyyətlərini nəzərə almadan onda yaradıcılıq uğurları tərbiyə etmək olmaz. İnkişaf etmiş ölkələrin təcrübəsindən belə görünür ki, məktəbdə hər bir dərsə təfəkkür və intellekt məkanı kimi baxılır. Bu məqsədlə müasir təlim metodlarının düzgün və məqsədyönlü tətbiqi başlıca şərt hesab edilir. Əgər ənənəvi dərs üsulunda əsas biliklər müəllim tərəfindən verilirdisə, interaktiv təlimdə üstünlük təhsilalanlara verilir. Onlar daim axtarışda olur, fikirlərini aydın şəkildə ifadə etməyə, əldə etdikləri bilik və bacarıqların düzgün tətbiqinə çalışırlar. Yeni metodlarla işləyən müəllim dünyada və ölkəmizdə gedən inkişaf tendensiyalarını mənimsəməklə fəal dərsin nə zaman, hansı məqsədlərə görə istifadəsini düzgün müəyyənləşdirə bilər.

XXI əsr-şəxsiyyətin formalaşmasında intellekt, yaradıcılıq əsri kimi dəyərləndirilir. Belə halda yaradıcı təfəkkürün inkişafı, şəxsiyyətin inkişafından və onun vətəndaş kimi formalaşma səviyyəsindən asılıdır. Elmi ədəbiyyatın məlumatlarına görə, inkişafetdirici təlim metodunun əsası J.Piajenin intellektin inkişaf nəzəriyyəsinə, yəni konstruktiv təlim metoduna əsaslanır. Belə yanaşmaya görə biliyin strukturu real təfəkkürün strukturuna adekvat olaraq qurulmalıdır. İnkişafetdirici təlimin (konstruktiv təlim) psixoloji ədəbiyyatda geniş işıqlandırılmasına baxmayaraq, məktəb praktikasında onun geniş tətbiq olunmamasının əsas səbəbi, bu vaxtadək şagirdlərin əqli cəhətdən inkişafının xüsusiyyətləri, motivasiya və idrak fəaliyyətinin texnologiyaları dəqiq işlənilməmişdir [4, s.15].

Təlimin başlıca vəzifələrindən biri şagirdlərə öyrənməyi öyrətmək, onların biliklərə şüurlu yiyələnmələrini təmin etməkdir. Yeni təlim texnologiyalarından istifadə etməklə fənnə maraq oyatmaq olar. Biliklərin mənimsənilməsi və möhkəmləndirilməsi prosesində şagirdlərin müstəqil düşüncə tərzi mühüm önəm daşıyır. Bütün bunlara nail olmaq üçün müəllim fənnlərarası əlaqə şəraitində yeni texnologiyalardan istifadə etməklə şagirdlərin ümumi inkişafına nail olur. Burada ümumi inkişafda əsas məqsəd hərtərəfli inkişaf etmiş, humanist yönümlü şəxsiyyət yetişdirməkdən ibarətdir. Bu isə yeni texnologiyalar şəraitində hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almaqla mümkün ola bilər. Beləliklə, təlim-tədris fəaliyyətinin keyfiyyəti bilavasitə müəllimin yaradıcılığından, peşəkarlıq səviyyəsindən, yeni pedaqoji texnologiyaların tədris prosesinə tətbiqindən asılıdır.

### *Ədəbiyyat*

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. //Azərbaycan məktəbi, 2013, №5. s. 5-17
2. Ağayeva S. Tədqiqatçılıq motivasiya yaradır. //Azərbaycan məktəbi,2017, №3. s.31-36.
3. Məmmədov T., Mikayılova V. Təlimin keyfiyyətinin yüksəldilməsinə dair mülahizələr. //Azərbaycan məktəbi,2017, №4. s.73-77
4. Mehrabov A. Təhsildə konstruktiv təlim, onun səciyyəvi xüsusiyyətləri. //Azərbaycan məktəbi, 2010, №6. s.14-21
5. Süleymanova A. Keyfiyyətin idarəedilməsinin qiymətləndirilməsi mexanizmləri. //Azərbaycan məktəbi, 2016., №4. s.34-42

## ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКИЕ АСПЕКТЫ РОЛИ ИННОВАЦИЙ В ФОРМИРОВАНИИ КАЧЕСТВЕННЫХ ИЗМЕНЕНИЙ В ОБРАЗОВАНИИ

***Гасанова Лейла Ага кызы***

***Резюме***

Качество образования в нашей стране определяется качествами личности, получившего это образование. Трудности индивидуализации педагогических требований и планирования практических приемов, отвечающих требованиям развития, в

первую очередь ощущают педагоги при работе со слабыми и неуспевающими студентами. Там, где понимается педагогическая цель, анализируется проблемная ситуация, активизируются учащиеся, досконально изучаются отдельные компоненты предмета. Учитель как личность живет во взаимоотношениях с ним учеников. Опыт показывает, что интерес учащихся в большей степени сосредоточен на уроке, основанном на живом общении и диалоге. Путь исследования укрепляет творческое мышление у студентов. XXI век оценивается как век интеллекта и творчества в формировании личности. При этом развитие творческого мышления зависит от развития личности и уровня ее сформированности как гражданина. Обучение – качество педагогической деятельности напрямую зависит от творчества педагога, уровня профессионализма, применения новых педагогических технологий в учебном процессе.

## PSYCHOLOGICAL AND PEDAGOGICAL ASPECTS OF THE ROLE OF INNOVATIONS IN THE FORMATION OF QUALITATIVE CHANGES IN EDUCATION

***Gasanova Leyla Aga***

***Summary***

Difficulties in personalizing pedagogical demands and planning practical methods that meet the requirements of development are first of all felt by teachers when working with weak and underachieving students. Where the pedagogical goal is understood, the problem situation is analyzed, students are activated, individual components of the subject are thoroughly studied. The teacher as a personality lives in the students’ relationship with him. Experience shows that students’ interest is more focused on a lesson based on live communication and dialogue. The way of research strengthens creative thinking in students. The 21st century is valued as the age of intelligence and creativity in the formation of personality. In this case, the development of creative thinking depends on the development of personality and the level of its formation as a citizen. Training – the quality of teaching activities directly depends on the creativity of the teacher, the level of professionalism, the application of new pedagogical technologies to the teaching process.

***Rəyçi: dosent İbrahimov Cəfər***
***Psixologiya kafedrasının 01 fevral 2023-cü il tarixli iclasın 10 saylı protokolu***
***Daxil olduğu tarix 06 fevral 2023-cü il***

**UOT: 159.9**

## İNTELLEKTUAL İNKİŞAF VƏ TƏDRİSİN KEYFİYYƏTİNİN ƏSAS PRİORİTETLƏRİ

***Prof. İbrahimov Cəfər Hüseyn oğlu***
***Gəncə Dövlət Universiteti***
***ibrahimov –cefer @ list. ru***

**Xülasə:** *Psixologiyada təhsilin keyfiyyətinin diqqət mərkəzində olması. Ümumi intellekt səviyyəyə uyğun təlim uğurlarını şərtləndirən amillər. Şagirdlərin təlim motivasiyası. Yeni innovativ metodlardan istifadənin zəruriliyi. Müəllim – şagird – valideyn münasibətlərinin təlim fəaliyyətinin keyfiyyətli tədrisinə təsiri. Şagirdlərdə məntiqi təfəkkürün formalaşması və yaddaşın yeni biliklərlə zənginləşməsi. Həyata keçirilən islahatlar prosesində yeni konsepsiyaların yaranması.*

**Açar sözlər**: intellekt səviyyə, təhsilin keyfiyyəti, təlim uğurları, innovativ metodlar, məntiqi təfəkkür, müasir dərs.

**Ключевые слова**: уровень интеллекта, качество образования, успешность обучения, инновационные методы, логическое мышление, современный урок.